# Uşaq dram dərnəkləri

**Bildiyimiz kimi indi respublikamızın mədəniyyət və turizm nazirliyi sistemində özfəaliyyətinin yüksək forması olan onlarla xalq teatrları, dram dərnəkləri, ələlxüsus uşaq dram kollektivləri fəaliyyət göstərir.**

Dövlət və hökumətimiz xalq təsərrüfatı, kənd təsərrüfatının yeni forması olan fermer təsərrüfatının çox şaxəli sahələrinin inkişafı ilə yanaşı, elm, təhsil və mədəniyyətin coşqun tərəqqisini təmin etmək üçün böyük tarixi tədbirlər həyata keçirir. Bu tədbirlər sistemində mədəni-maarif ocaqları başlıca yer tutur.

Təkcə bunu qeyd etmək lazımdır ki, son illər onlarla yeni məktəb binaları, səhiyyə ocaqları və mədəni-maarif müəssisələri tikilib əhalinin istifadəsinə verilmişdir. Bütün bunların nəticəsidir ki, məqsədə çatmaq üçün mədəni tədbirlərin çeşidini qarşıya qoymaq əsas məqsəd hesab olunur.

Elə buna görə də mədəniyyət işçiləri estetik, etik təsir vasitələrini artırmalıdırlar ki, bu təsir vasitəsi içərisində uşaq və yeniyetmə özfəaliyyət dərnəkləri xüsusi rol oynayır. Fərəhlə qeyd etməliyik ki, son zamanlar mədəniyyət sahəsində aparılmış islahatlar nəticəsində uşaq və yeniyetmələrin özfəaliyyət, ən başlıcası dram dərnəklərinə diqqət artırılmışdır.

Uşaq və yeniyetmələr məktəb dərnəkləri ilə yanaşı mədəniyyət evi və klublara da cəlb olunurlar.

Onlar bu mədəniyyət evi və klublarda elm, həyat, texnika, gözəlliklə yanaşı, ədəbiyyat və onun dram janrı barədə bilgilər almaqla yanaşı dram dərnəyində öz zövqlərini, biliklərini, həvəslərini də formalaşdırırlar.

Onlar dram dərnəyində müstəqil Azərbaycanımızın elm və incəsənət adamlarının yaradıcılığı ilə də yaxından tanış olurlar. Bu bir həqiqətdir ki, indi respublikamızın ən adlı-sanlı şəxsiyyətləri bir vaxtlar uşaq və yeniyetmə özfəaliyyət dərnəklərində iştirak etmişlər. Məsələn, görkəmli alim Kərim Kərimov uşaq texniki, SSRİ xalq artistləri Mehdi Məmmədov, Adil İsgəndərov, Ələsgər Ələkbərov, Hökumə Qurbanova, baletmeyster Qəmər Almaszadə, Azərbaycan respublikasının xalq artistləri Leyla Bədirbəyli, Nəcibə Məlikova, Məlik Dadaşov, Həsən Məmmədov və başqa adlı-sanlı sənət adamları klublardakı uşaq dram və rəqs dərnəklərində məşğul olmuşlar. Bu baxımdan mədəni-maarif müəssisələrində fəaliyyət göstərən dərnək rəhbərləri çalışmalıdırlar ki, uşaqlarda və yeniyetmələrdə vətənə məhəbbətlə yanaşı, sənət əsərlərimizə, gözəlliyə, əməyə, xeyirxahlığa, nəcibliyə ülviyyət, məhəbbət hissi aşılasınlar.



**Müstəqillik qazandıqdan sonra gələcəyə doğru gedən respublikamızda yalnız maddi nemətlər deyil, eyni zamanda mənəvi, mədəni sərvətlər yaradılması tarixi inkişafın başlıca, zəruri qanunlarından birinə çevrilmişdir. Bu qanunlarda məqsəd gənc nəslin nəzərdə tutulan bütün əxlaq tərbiyəsini formalaşdırmaqdan ibarətdir.**

Pedaqoji üçbucağın əsas bucağı sayılan klub müəssisələri uşaqlara təkcə dərin bilik, bacarıq aşılamaq deyil, eyni zamanda onlarda bədii əsərlərə, incəsənətə, dramaturgiyaya, ümumilikdə ədəbiyyata, şeirə məhəbbət hissi də aşılamalıdır. Bununla əlaqədar dram dərnəyinin rəhbərləri işinə diqqəti artırmalı, onları nikbin, sağlam bədii əsərlər əsasında tərbiyə etməlidir.

Klub müəssisələrində dram dərnəyinin təşkilinə, ardıcıl işləməsinə, repertuarın düzgün seçilməsinə, tamaşaların parlaq çıxmasına dərnək rəhbəri xüsusi diqqət yetirməlidir.

Dərnək rəhbəri hər şeydən əvvəl bilməlidir ki, dram dərnəyində incəsənətin bir çox növləri birləşir və sintetik halda ortaya çıxır. Bu dərnəklərdə təkcə balaca "artistlər" deyil, eyni zamanda balaca musiqiçilər, rəqqaslar, rəssamlar (səhnə tərtibatı üçün), oxuyanlar (pyesdə lazım gələrsə) və sairə sənət həvəskarları iştirak edə bilərlər. Bununla yanaşı dram dərnəyi əsas komponent sayılan uşaqların və yeniyetmələrin nitq mədəniyyətinin inkişafında da mühüm rol oynayır.

Burada bir məsələni də qeyd etmək lazımdır. Bu da dram dərnəyinin rəhbəri-rejissoru məsələsidir. Qeyd etməliyik ki, dram dərnəyinə təsadüfi adamları deyil, müasir teatr sənətini dərindən sevən, onu incəliklərinə qədər dərk edən, uşaqların və yeniyetmələrin psixologiyasından baş çıxaran istedadlı, səmimi, tələbkar mütəxəssislər rəhbərlik etməlidir.

Biz bu yazıda dram dərnəklərinin rəhbərlərinə bir neçə metodiki tövsiyələr verməyi də məqsədəuyğun hesab edirik.

K.S.Stanislavski demişdir: "Rejissorun rolu mürəkkəb və çoxcəhətlidir. Estetik, şair, psixoloq, ədəbiyyatçı, rəssam, musiqiçi, səhnə bilicisi, müəllim və nəzəriyyəçi, praktik, inzibatçı onda birləşir. Rejissora yaradıcılıq təşəbbüsü və s. lazımdır".

Bu baxımdan dram dərnəyinin rəhbəri mütləq rejissor işindən məlumatlı olmalıdır. Ona görə də dram dərnəyinin rəhbəri birinci olaraq pyesin seçilməsindən başlamalıdır. Dərnək rəhbəri çalışmalıdır ki, pyes yığcam, hadisələr aydın, mövzu isə məktəblilərin həyatından alınsın və ya dərslər ilə uzlaşsın. Pyes seçilərkən çalışmaq lazımdır ki, seçilmiş pyes uşaq və yeniyetmələrin tərbiyəsinə təsir etsin.

Təcrübə göstərir ki, uşaqlar üçün pyes seçərkən dərnək rəhbəri gərək iri əsərlər seçməsin. Çünki belə olduqda vaxt uzanır, həvəskarlar da ruhdan düşürlər. Ona görə də birinci olaraq dram dərnəyinin rəhbəri əsərin seçilməsindən başlamalıdır.

İkincisi rəhbər uşaq və yeniyetmələr arasında yaşa baxıb rol bölgüsünə diqqət yetirməlidir. Dərnək rəhbəri bilməlidir ki, baş rolu kimə verir. Bu prosesi elə etmək lazımdır ki, uşaqlar arasında narazılıq olmasın. Həm də tamaşanın təsiri baş rolun ifaçısından çox asılıdır.

Dərnək rəhbəri üçüncü olaraq seçdiyi pyesin təhlili və müzakirəsinə diqqət yetirməlidir. Bu prosesə pyesi seçdikdən sonra başlamalıdır. Dərnək rəhbəri pyesin müəllifi barədə məlumat verdikdən sonra, əsasən əsərin ideya-siyasi əhəmiyyətini də açmalıdır. Sonra əsərin məna-məqsədi, daşıdığı ictimai-estetik ideya, tərbiyəvi əhəmiyyəti barədə ətraflı məlumat verməlidir. Eyni zamanda rəhbər zaman-məkan, ictimai-tarixi şəraitlə də balaca aktyorları tanış etməlidir.

Dərnək rəhbəri dördüncü prosesdə məşqlərin keçirilməsi qaydasına diqqət yetirməlidir.

Beşinci proses adətən stolarxası məşqdən başlayır. Dərnək rəhbəri bu prosesdə iştirakçıları pyesin təhlili ilə tanış etməlidir. Unutmaq olmaz ki, stolarxası məşq pyesin oxunuşu ilə başlayır. Həvəskar bu prosesdə oynayacağı obrazın dialoqlarını dəftərə köçürür. Bu məşqdə hansı sözdən sonra hansı obrazın danışacağı müəyyən olunur.

Dərnək rəhbəri elə birinci oxunuşdan iştirakçıların diksiyasına, tələffüzünə fikir verməlidir. Stolarxası məşqlər o vaxta qədər aparılmalıdır ki, hər bir iştirakçı rolu tam qavramış olsun, fiziki davranışını, səhnə hərəkətini düzgün başa düşmüş olsun. Dərnək rəhbəri rolların açılmasına, qavranmasına da diqqət yetirməlidir. Bilməliyik ki, tamaşanın hazırlanmasında altıncı proses tamaşanın tərtibatı məsələsidir. Bu prosesdə dekorlar, işıq və səs əsas amildir. Peşəkar rəssam yoxdursa, onda tərtibatı sadələşdirmək üçün parça üzərində vermək daha məqsədəuyğun olardı.

Səs tərtibatı tamaşanın gedişatına mane olmamalı, əksinə, kömək etməlidir.

Tamaşanın təsirli olması üçün qrimlər də düzgün seçilməlidir. Çalışmaq lazımdır ki, qrimdən kor-koranə yox, yerində istifadə edilsin.

Tamaşanın hazırlanmasında yeddinci proses - qurma dekorlardan istifadə prosesidir. Qurma dekorlarla aparılan məşqdə dəftərdən istifadə etmək olmaz. Bu məşqdə aktyorlar öz obrazlarının sözlərini əzbər bilməlidir.

**Səkkizinci proses isə axırıncı işdir. Bu məşqlərə baş məşqlər deyirlər. Baş məşq əslində tamaşa deməkdir. Baş məşqdə tamaşanın tərtibatı, musiqisi, təbii səslər, işıq, qrim, butaforiya, kostyum və s. köməkçi vasitələr əlaqələndirilib uzlaşdırılmalıdır, həm də bütün nöqsanlar aradan qaldırılmalıdır.**

**● Zabit CAVADOV,**
***kulturoloq***